iki sahil

# Qayğı ilə addım-addım...

**Mayın 30-da Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatı Gənclər Birliyinin və "Qayğı-Sağlam Nəsil Naminə" İctimai Birliyinin təşkilatçılığı ilə 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş "Qayğı ilə addım-addım" konfransı keçirilib.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə ictimai birliyin nəzdindəki Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinin fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib. Tədbirdə çıxış edən ictimai birliyin sədri Sevinc Abdullayeva bildirib ki, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunub. Beş il ərzində Daun sindromlu şəxslərin cəmiyyətə inteqrasiya edilməsi üçün görülən işlərdən danışan S.Abdullayeva deyib: "Bu sindromdan əziyyət çəkənlərin cəmiyyətə inteqrasiyası üçün addım-addım irəliləyirik. İctimai Birliyin təşəbbüsü ilə bu vaxtadək onlarla Daun sindromlu şəxs müalicə və əməliyyat olunub. Onların sağlamlığı daim nəzarət altında saxlanılır, mütəmadi müayinələrdən keçirlər. Daun sindromluların maraq dairələrinə uyğun tədbirlər, əyləncə proqramları, görüşlər keçirilir. Mərkəzdə onlara dünyəvi dəyərlər, peşə vərdişləri öyrədilir və cəmiyyətimiz üçün neçə-neçə faydalı vətəndaş yetişdirilir. Hətta bu sindromdan əziyyət çəkənlərin valideynləri üçün maarifləndirici seminarlar da təşkil olunur.



Bu gün ölkəmizdə bu qəbildən olan şəxslərə dövlət səviyyəsində qayğı göstərilir. Bizə dəstək olan bütün qurumlara öz minnətdarlığımızı bildiririk. Hər kəsi Daun sindromlulara qayğı və diqqətlə yanaşmağa çağırırıq".

Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinin direktoru Natella Həsənova "Azərbaycanda məxsusi olaraq Daun sindromlu şəxslər üçün nəzərdə tutulmuş ilk mərkəz" mövzusunda təqdimatla çıxış edib. N.Həsənova mərkəzdə 250-dən çox uşaq və yeniyetmənin reabilitasiya keçdiyini və onlara yüksəkixtisaslı tibb işçilərinin xidmət göstərdiyini qeyd edib. O, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzində Daun sindromlu xəstələr üçün psixologiya, məktəbəqədər hazırlıq, valideyn otaqları, biologiya və zoologiya kabinetləri, müxtəlif dərnəklərin fəaliyyət göstərdiyini diqqətə çatdırıb. Direktor bildirib ki, mərkəzdə uşaqlarda ünsiyyət, özünəxidmət və sadə əmək vərdişləri formalaşdırılır. Burada məşğələlər iki növbə üzrə keçirilir. Mərkəzdə göstərilən bütün xidmətlər və məşğələlər təmənnasızdır.

Tədbirdə müxtəlif sahələrdən olan mütəxəssislər Daun sindromu ilə bağlı hər kəsi maraqlandıran məqamlara toxunublar, həmin uşaqların cəmiyyətdə fəal iştirakı istiqamətində atılmalı olan addımlardan söz açıblar.

Sonda Daun sindromlu uşaqlar hazırladıqları rəqsi nümayiş etdiriblər.